# AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
# BAKI DÖVLƏT UNİVERSİTETİ

# FƏNN SİLLABUSU

**"Təsdiq edirəm"**

**Əmək və ekologiya hüququ kafedrasının müdiri**

**Prof. A.M.Qasımov**

**"______"yanvar 2015–ci il**

**Kafedra:** Əmək və ekologiya hüququ

**Fakültə:** Hüquq

## I. Fənn haqqında məlumat

Fənnin adı:Sosial təminat hüququ

Tədris yükü (saat) cəmi: 45 saat(mühazirə - 30 saat, seminar – 15 saat)

Tədris ili 2014/2015,semestr-VI,bölmə: azərbaycan, məşğələ qrup 1414

Kredit sayı - 3 kredit

**II. Əliyev Mayis Nəbi oğlu, hüquq üzrə elmlər doktoru, professor**

**III.** Məsləhət günləri və saatları: I günsaat 12-00 – 14-00

E-mail ünvanı: aliyev.mayis@mail.ru

İş telefonu: 0125387432

## Tələb olunan dərsliklər və dərs vəsaitləri:

***Əsas:***

1.Əliyev M.N. Sosial təminat hüququ: Dərslik. Bakı: Adiloğlu, 2007

2.Qasımov A.M., Əliyev M.N. Azərbaycan Respublikasının pensiya hüququ: Dərs vəsaiti. Bakı: Digesta, 2001.

**3.**Əliyev M.N. Sosial xidmət sosial təminat hüququnun institutu kimi. Dərs vəsaiti. Bakı: Təknur, 2008

***Əlavə:***

İsmayılov İ.İ., Mürşüdov R.İ. Sosial təminat hüququ və onun tətbiqi problemləri. Bakı: Qanun, 2001
Kərimov D.F. Ailə başçısını itirməyə görə əmək pensiyaları. Bakı: Təknur, 2009
Əliyev M. N. Yaşa görə pensiyalar: müasir vəziyyəti, hüquqi problemləri, inkişaf perspektivləri. Bakı: Bakı Universiteti nəşriyyatı, 2003
Əliyev M.N., Mürşüdov R.İ. «Sosial müavinətlər haqqında» Azərbaycan Respublikası Qanununun elmi və praktiki kommentariyası. Bakı: İlay, 2008
Mürşüdov R.İ. Yaşa görə əmək pensiyaları. Bakı: Təknur, 2007
Mürşüdov Ü.İ. Sosial müavinət və təqaüdlərin hüquqi tənzimi. Bakı: Avropa, 2013

**IV. Fənnin təsviri və məqsədi:**

(Fənn haqqında qısa məlumat, onunla şərtləşən fənlər (bilavasitə bağlı olan/uyğun gələn), fənnin tədrisinin məqsədləri. Bu fənni öyrənməklə tələbələrin nəyi biləcəkləri, nəyə nail olacaqları və hansı vərdişlərə yiyələnəcəkləri qeyd edilir)

***Kursun qısa təsviri:*** Sosial təminat hüququ ümumi hüquq sistemində müstəqil sahə kimi ötən əsrin ortalarında formalaşmışdır. Hələ XX əsrin 70-ci illərinin sonu, 80-ci illərinin əvvəllərində sosial təminat hüququnun anlayışı, predmeti və hüquqi tənzimetmə metodu barəsində elmi diskusiyalar aparılırdı. Müasir dövrdə isə bu sahənin tam mənada fəaliyyət göstərməsi artıq reallıqdır və bu hüquq sahəsinin müstəqil bir hüquq sahəsi kimi qəbul edilməsi məsələsi alimlər arasında heç bir mübahisə yaratmır. Sosial təminat hüququ hər bir kəsə şamil edilən hüquqdur. O, hər bir şəxsi doğulduğu andan həyatının axırına kimi müşayət edir, çünki sosial təminat sahəsində hüquq münasibətlərinin yaranması əsasını insanın doğulması, onun ölümü, xəstəliyi, qocalığı, işsizliyi, sosial yardıma ehtiyacı və s. təşkil edir. Sosial təminat hüququ müstəqil hüquq sahəsi olub sosial təminat sistemi üzrə pul ödəmələri (pensiya, sosial müavinət, sosial yardım, təqaüd və s.) və natural növlərin (sosial xidmət, tibbi yardım, dərman yardımı və s.) münasibətləri tənzimləyir. O, əmək hüququ, inzibati hüquq, konstitusiya hüququ sahələri ilə bilavasitə bağlıdır. Bu fənnin tədrisinin məqsədi kimi sosial təminat hüququ ilə bağlı nəzəri müddəaların, əsasən də Azərbaycan Respublikasının sosial təminat qanunvericiliyinin öyrənilməsi çıxış edir. Bütövlükdə bu sahənin normalarını hər bir şəxs, daha çox isə hüquqşünaslar ətraflı və dərindən bilməlidirlər. Bunları bilmək insana ünvanlanmış sosial müdafiədən vaxtında və tam istifadə etməyə, zərurət yarandıqda isə – öz hüquqlarını düzgün müdafiə etməyə imkan verir. Hər bir müəssisənin, idarənin, təşkilatın hüquqi xidməti sosial təminat hüquq normalarını kompleks şəkildə mənimsəməlidirlər. Sosial təminat hüququ fənnini öyrənməklə tələbələr AR-nın sosial təminat sahəsində qanunvericiliyini (pensiya, müavinət, tibbi yardım, sosial xidmət, sosial yardım və s.) biləcəklər, pozulmuş sosial təminat hüquqlarının bərpasına nail olacaqlar və sosial təminat hüquq normalarını tətbiq etmək vərdişlərinə yiyələnəcəklər.

«Sosial təminat hüququ» fənni üzrə tədris proqramının mənimsənilməsi prosesində tələbələr

**Malik olmalıdır**

a) hüquq elmləri sistemində «Sosial təminat hüququ» fənninin rolu haqqında;
b) normativ-hüquqi aktların tətbiqi və təfsiri qaydası haqqında təsəvvürlər;

**Bilməlidir:** «Sosial sığorta haqqında», «Əmək pensiyaları haqqında», «Sosial müavinətlər haqqında», «Tibbi sığorta haqqında» və s. Azərbaycan Respublikasının Qanunlarının normalarını.
b) Sosial təminat qanunvericiliyinin tətbiqi ilə əlaqədar olan digər normativ-hüquqi aktları.

**Bacarmalıdır:**

a) qanunları və digər normativ-hüquqi aktları təfsir və tətbiq etməyi;
b) faktları və halları hüquqi cəhətdən düzgün tövsüf etməyi.
c) hüquqi xarakterli sənədləri hazırlamağı, ixtisaslı hüquqi məsləhətlər və rəylər verməyi.
ç) qanunauyğun olaraq hüquqi qərarlar qəbul etməyi və digər hüquqi hərəkətləri həyata keçirməyi.

**Mənimsəməlidir:** a) Azərbaycan Respublikasının sosial təminat qanunvericiliyində istifadə olunan terminləri və əsas anlayışları.

## V. Fənnin təqvim planı:

| Həftələr | Mövzunun adı və qısa icmalı | Mühazirə | Məşğələ | Saat | Tarix |
|---|---|---|---|---|---|
| | **Mövzu № 2. Sosial təminat hüququnun anlayışı, predmeti, metodu və sistemi**<br>Qısa icmalı:Hüququn müstəqil sahəsi kimi sosial təminat hüququnun anlayışı. İlk növbədə sosial təminat hüququnun müstəqil hüquq sahəsi kimi xarakterik əlamətləri izah edilir. Ona sosial sığorta və sosial təminat qaydasında pul ödəmələrini, tibbi və dərman yardımını, qanunvericiliklə müəyyən edilmiş qaydada və normada sosial xidmət, yaxud sosial güzəştləri səlahiyyətli orqanların əhaliyə təqdim etməsi yolu ilə ümumi daxili məhsulun bölüşdürülməsi üzrə ictimai münasibətləri, həm də vətəndaşların sosial təminata olan konstitusion hüquqlarının reallaşdırılması, müdafiəsi və bərpası üzrə münasibətləri xüsusi metodlarla tənzim edən hüquq normalarının məcmusu kimi anlayış verilir. Sosial təminat hüququnun ümumi və ya xüsusi elm sahəsinə aid olması məsələsi də izah edilir.<br>Sosial təminat hüququnun predmetinə daxil olan ictimai münasibətlərin xarakterik əlamətləri və onların dairəsi göstərilir. Sosial təminat hüququnun predmetini sosial təminat sistemi vasitəsilə ümumi daxili məhsulun bölüşdürülməsi ilə bağlı yaranan maddi və prosedur-prosessual xarakterli mürəkkəb kompleks ictimai münasibətlər təşkil edir. Burada predmetə daxil olan münasibətlərin mahiyyəti göstərilir və təhlil edilir.<br>Sosial təminat hüququnun metodu. Burada sosial təminat hüququnun metoduna anlayış verilir və aşağıdakı xüsusiyyətləri təhlil edilir:<br>Sosial təminat hüququnun metodlarının aşağıdakı xarakterik əlamətlərini göstərmək olar:<br>1) İmperativ-dispozitiv tənzimetmənin uzlaşması;<br>2) Mərkəzləşdirilmiş və lokal tənzimetmənin uzlaşması;<br>3) Bir qayda olaraq müqavilə vasitəsi ilə tənzim edilmənin yolverilməzliyi;<br>4) Sosial təminat hüquq münasibətlərinin spesifik hüquqi faktlar (əsasən də insan iradəsindən asılı olmayan hadisələr) əsasında yaranmasının, dəyişməsinin və xitamının | | 2 | 2 | 29.01.15 |

| | | | | | |
|---|---|---|---|---|---|
| | şərtlənməsi;<br>5) Sosial təminat hüquq münasibətləri subyektlərinin bir-birindən mütləq şəkildə asılı olmaması, yəni onların muxtariyyəti;<br>6) Sosial təminat hüquq münasibətlərinin subyekti kimi vətəndaşların hüquqlarının mütləq xarakter daşıması və sosial təminatın bu və ya digər növünü təqdim etməli olan orqanın tövsiyə xarakterli qərarlar qəbul etməsinin yol verilməzliyi;<br>7) Vətəndaşların pozulmuş hüquqlarının inzibati və məhkəmə qaydasında müdafiəsi, bu zaman hüquqbərpaedici və hüquqməhdudlaşdırıcı sanksiyaların tətbiq edilməsi.<br>Sosial təminat hüququnun sistemi.Sosial təminat hüququnun sistemi dedikdə sosial təminat hüquq normalarının bu hüquq sahəsi daxilində elmi və məntiqi cəhətdən əsaslandırılmış düzülüşü başa düşülür. Həmçinin sosial təminat hüququnun ümumi və xüsusi hissələrinə daxil olan institutlar izah edilir.<br>Sosial təminat hüquq elminə onların anlayış verilməklə onun predmeti, hüquq elmləri sistemində yeri və elmi-tədqiqat metodları göstərilir.<br>**Oxu materialları (kitabın adı, müəlliflər və lazımi səhifələr göstərilməklə):**<br>1. Əliyev M.N. Sosial təminat hüququ: Dərslik. Bakı: Adiloğlu, 2007, s.69-110<br>2.Əliyev M.N. Sosial təminat hüququ hüququn müstəqil sahəsi kimi // AMEA-nın Fəlsəfə və Siyasi-Hüquqi Tədqiqatlar İnstitutunun elmi əsərləri. Elmi-nəzəri və ictimai siyasi jurnal, 2006, № 1-2, s. 358-365<br>Əliyev M.N. Sosial təminat hüququnun sistemi / Azərbaycan Respublikasında dövlət və hüquq quruculuğunun aktual problemləri. Elmi məqalələr məcmuəsi. 16-cı buraxılış. Bakı, Adiloğlu, 2006, s. 100-102<br>Əliyev M.N. Sosial təminat hüququnun metodu / Azərbaycan Respublikasında dövlət və hüquq quruculuğunun aktual problemləri». Elmi məqalələr məcmuəsi. 17-ci buraxılış. Bakı, Adiloğlu, 2007, s. 127-133<br>Əliyev M.N. Sosial təminat hüququ və sosial hüquq: qarşılıqlı əlaqə və müasir baxışlar//AMEA-nın Xəbərləri. Humanitar və ictimai elmlər seriyası, Bakı, 2006, № 2, s.244-253 | | | | |

| Həftələr | Mövzunun adı və qısa icmalı | Mühazirə | Məşğələ | Saat | Tarix |
|---|---|---|---|---|---|
| | **Mövzu № 4. Sosial təminat hüququnun mənbələr**<br>Qısa icmalı:Sosial təminat hüququ mənbələrinin anlayışı verilməkləonların müxtəlif əsaslara görə (subyektlərinə, təsir dairəsinə, aktı qəbul edən orqana, formasına və s. görə) təsnifatı aparılır<br>Sosial təminat hüququnun mənbələri dedikdə dövlətin vətəndaşlara sosial təminat sistemi üzrə pensiyaların, müavinətlərin, sosial xidmətlərin və digər sosial təminat növlərinin təqdim edilməsi ilə bağlı olan ictimai münasibətlərin tənzim olunmasına yönəldilmiş iradəsinin ifadə formaları və üsulları başa düşülür. Burada sosial təminat hüququnun mənbələrinin müəyyən meyarlar baxımından təsnifatı aparılmış, ayrı-ayrı mənbələrin iyerarxiyası göstərilməkləonların geniş şəkildə ümumi xarakteristikası verilir.<br>**Oxu materialları (kitabın adı, müəlliflər və lazımi səhifələr göstərilməklə):**<br>1. Əliyev M.N. Sosial təminat hüququ: Dərslik. Bakı: Adiloğlu, 2007, s.127-157<br>2. Əliyev M.N., Ələsgərova L.Ə. Sosial təminat hüququnun mənbələrinin anlayışı və xüsusiyyətləri // Qanun, Bakı, 1997, №7, s. 16-17<br>3. Əliyev M.N. Sosial təminat hüququnun əsas mənbəyi kimi Azərbaycan Respublikası Konstitusiyasının ümumi xarakteristikası // Qanunçuluq, Bakı, 2007, № 8, s. 15-20<br>4. Əliyev M.N. Sosial təminat hüququnun mənbələri kimi beynəlxalq hüquqi aktların ümumi xarakteristikası // Beynəlxalq hüquq və inteqrasiya problemləri, Bakı, 2006, № 1 (05), s. 28-31<br>5. Əliyev M.N.Sosial təminat hüququnun mənbəyi kimi lokal xarakterli aktların xüsusiyyətləri//Bakı universitetinin xəbərləri. Sosial-siyasi elmlər seriyası, 2007, №4, s. 24-29<br>6. Sadıqov R.H. Sosial təminat haqqında qanunvericiliyin məcəlləşdirilməsi perspektivləri / Keçid dövründə Azərbaycan Respublikasında dövlət və hüquq quruculuğunun aktual problemləri. Elmi məqalələr məcmuəsi. 14-cü buraxılış, Bakı, Adiloğlu, 2006, s. 231-243 | | 2 | 2 | 12.02.15 |
| | **Mövzu № 6. Sosial sığorta stajı**<br>Qısa icmalı:Burada ilk növbədə sosial sığor- | | 2 | 2 | 26.02.15 |

| | | | | | |
|---|---|---|---|---|---|
| | ta stajının anlayışı və növləri izah edilir.<br>Sığorta stajının leqal anlayışı ilk dəfə «Sosial sığorta haqqında» AR-nın Qanunda təsbit edilmişdir. Həmin qanunun 8-ci maddəsinə görə sığorta olunanın sığorta stajı - sığorta olunanın xeyrinə məcburi dövlət sosial sığorta haqqı ödənilən əmək fəaliyyəti dövrlərinin ümumi müddətidir. «Əmək pensiyaları haqqında» AR Qanununun 1-ci maddəsində isə sosial sığorta stajına əməkpensiyası hüququnun müəyyən edilməsi zamanı nəzərə alınan işvəyadigər fəaliyyət dövrlərinin (müvafiq icrahakimiyyəti orqanına məcburi dövlət sosial sığorta haqları ödəmək şərti ilə) vəeləcə dəmüvafiq qanunvericiliklə sığorta stajına daxil edilən digər dövrlərin məcmusu kimi anlayış verilmişdir. Pensiya qanunvericiliyi sığorta stajına daxil edilən dövrlərin hesablanmasının iki qaydasını müəyyən edir: sığorta stajının adiqaydada hesablanması;sığorta stajının güzəştli qaydada hesablanması.<br>Məcburi dövlət sosial sığorta haqlarının ödənilməsi barədə verilən sənədlə-dövlət sosial sığorta şəhadətnaməsi ilə sübut olunması göstərilməklə onun hüquqi rejimi izah edilir.<br>**Oxu materialları (kitabın adı, müəlliflər və lazımi səhifələr göstərilməklə):**<br>1. Əliyev M.N. Sosial təminat hüququ: Dərslik. Bakı: Adiloğlu, 2007, s.199-221<br>2. Əliyev M.N. Sosial sığorta stajının anlayışı, növləri və hesablanması qaydası / Azərbaycan Respublikasında dövlət və hüquq qurulucuğunun aktual problemləri». Elmi məqalələr məcmuəsi. 20-ci buraxılış. Bakı: Adiloğlu, 2008, s. 102-110<br>3. Zeynallı S.G. Sosial sığorta üzrə hüquq münasibətlərinin subyektləri və məzmunu/Azərbaycan Respublikasında dövlət və hüquq quruculuğunun aktual problemləri. Elmi məqalələr məcmuəsi. Bakı: Adiloğlu, 2009, № 01, s.259-265<br>4. Zeynallı S.G. Sosial sığorta hüquq münasibətlərinin obyektləri/Azərbaycan Respublikasında dövlət və hüquq quruculuğunun aktual problemləri. Elmi məqalələr məcmuəsi. Bakı: Adiloğlu, 2009, № 03, s.149-156<br>5. Əliyeva P.A. İcbari tibbi sığorta sistemində islahatların əsas istiqamətləri/Azərbaycan Respublikasında dövlət və hüquq quruculuğunun aktual | | | | |

| | | | | | |
|---|---|---|---|---|---|
| | problemləri. Elmi məqalələr məcmuəsi. Bakı: Adiloğlu, 2009, № 01, s.259-265 | | | | |
| | **Mövzu № 9. Əlilliyə görəəmək pensiyaları**<br>Qısa icmalı: Burada ilk növbədə əlilliyin anlayışı, onun qrupları, səbəbləri və hüquqi əhəmiyyəti göstərilir.<br>Əlillik dedikdə, anadangəlmə, xəstəlikdən və ya xəsarətdən doğan əqli və ya fiziki qüsurlar nəticəsində həyat fəaliyyəti məhdudlaşan sosial yardıma və müdafiəyə ehtiyacı olan şəxs başa düşülür. Əlilliyin dərəcələri (qrupları), səbəbləri və müddəti Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1997-ci il 19 avqust tarixli 93 nömrəli qərarı ilə təsdiq edilmiş «Tibbi sosial ekspert komissiyaları haqqında» Əsasnaməyə uyğun olaraq tibbi sosial ekspert komissiyaları tərəfindən müəyyən olunur. Tibbi sosial ekspert komissiyasının anadangəlmə xəstəlikdən və ya xəsarətdən doğan əqli və fiziki qüsurlar nəticəsində fəaliyyəti məhdudlaşan, sosial yardıma və müdafiəyə ehtiyacı olan şəxsi ekspert müayinəsindən keçirdikdən sonra qəbul etdiyi rəy əlilliyə görə əmək pensiyası hüquq münasibətinin yaranması üçün hüquqi fakt hesab olunur. «Tibbi sosial ekspert komissiyaları haqqında» Əsasnamənin 1.5-ci bəndinə əsasən isə əlilliyin aşağıdakı səbəbləri göstərilir: ümumi xəstəlik nəticəsində əlillik;əmək zədəsi, peşə xəstəliyi nəticəsində əlillik;uşaqlıqdan əlillik;Çernobıl AES-də qəzanın ləğvi ilə bağlı əlillik;Çernobıl AES-də hərbi xidmətlə əlaqədar əlillik;1990-cı il yanvar hadisələri ilə əlaqədar əlillik;hərbi xidmət dövrü ilə əlaqədar əlillik;hərbi xidmət vəzifəsini yerinə yetirməklə əlaqədar əlillik;hərbi əməliyyatlar keçirilən zonada olmaqla əlillik;müharibə əlilliyi;Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar əlillik.<br>Müasir pensiya qanunvericiliyi baxımından əlilliyə görə əmək pensiyasına aşağıdakı kimi anlayış verilir: əlilliyə görə əmək pensiyası dedikdə qanunla müəyyən edilmiş qaydada əlil kimi tanınan və əlillik baş verdiyi zaman müvafiq sosial sığorta stajına malik olan şəxslərə, yaxud müddətindən asılı olmayaraq müəyyən xidməti fəaliyyəti (məsələn, hərbi xidməti) həyata keçirən şəxslərə təyin edilən aylıq pul ödənişi başa düşülür. Əlilliyə görəəməkpensiyasının bazahissəsinin məbləği yaşagörəpensiyanın bazahissəsinin məbləğinin Iqrupəlillərə 120 faizi (Iqrupgözdən əlil- | | 2 | 2 | 12.03.15 |

| | | | | | |
|---|---|---|---|---|---|
| | lərə 200 faizi), IIqrupəlillərə 100 faizi, IIIqrupəlillərə isə 55 faizi həcmində müəyyən edilmişdir.<br>**Oxu materialları (kitabın adı, müəlliflər və lazımi səhifələr göstərilməklə):**<br>1. Əliyev M.N. Sosial təminat hüququ: Dərslik. Bakı: Adiloğlu, 2007, s.256-267<br>2. Əliyev M.N. Azərbaycan Respublikasında pensiya təminatı sisteminin təşəkkülü və inkişaf perspektivləri (hüquqi problemlər). Bakı: Bakı Universiteti nəşriyyatı, 2003<br>3. Əliyev M.N. Əlilliyə görə pensiyalar: müasir vəziyyət və problemlər // Kazus, 2003, № 1, s. 8-14<br>4. Həsənzadə S.B. Azərbaycan Respublikasında əlillərin sosial müdafiəsinin hüquqi tənzimi. Bakı: Elm, 2006<br>5. Həsənzadə S.B. Əlilliyə görə əmək pensiyalarının hesablanması qaydası/Azərbaycan Respublikasında dövlət və hüquq quruculuğunun aktual problemləri. Elmi məqalələr məcmuəsi. Bakı: Adiloğlu, 2009, № 01, s. 132-138<br>6. Həsənzadə S.B. Əlillərin sosial müdafiəsinin hüquqi tənzimlənməsinin təkmilləşdirilməsi məsələləri/Azərbaycan Respublikasında dövlət və hüquq quruculuğunun aktual problemləri. Elmi məqalələr məcmuəsi. Bakı: Adiloğlu, 2009, № 02, s.115-122<br>7. Həsənzadə S.B. Əlillərin reabilitasiyasının praktiki aspektləri/Azərbaycan Respublikasında dövlət və hüquq quruculuğunun aktual problemləri. Elmi məqalələr məcmuəsi. Bakı: Adiloğlu, 2009, № 03, s.160-165 | | | | |
| | **Mövzu № 10. Ailə başçısını itirməyə görəəmək pensiyaları**<br>Qısa icmalı:Burada ailə başçısını itirməyə görə əmək pensiyasının anlayışı, bu pensiyanı almaq hüququ olan şəxslərin dairəsi və onun təyin edilməsi şərtləri və məbləği izah edilir.<br>Mövcud pensiya qanunvericiliyi baxımından isə ona aşağıdakı kimi anlayış vermək olar: ailə başçısını itirməyə görə əmək pensiyası dedikdə qanunla müəyyən edilmiş qayda və şərtlərlə dövlət sosial müdafiə fondunun vəsaitləri hesabına ailə başçısının ölməsi ilə əlaqədar olaraq onun öhdəsində (himayəsində) olan əmək qabiliyyəti olmayan ailə üzvlərinin əmək haqqı və digər gəlirlərinin kompensasiyası məqsədilə təyin edilən | | 2 | 2 | 26.03.15 |

| | | | | | |
|---|---|---|---|---|---|
| | aylıq pul ödənişi başa düşülür. Ailə başçısını itirməyə görə əmək pensiyasının təyin edilməsi üzrə hüquq münasibətlərinin yaranma əsası olan hüquqi tərkibdə həm ailə başçısının özünə, həm də onun ailə üzvlərinə aid olan faktları ayırmaq lazımdır. Ailə başçısının itirilməsi dedikdə onun ölümü və ya xəbərsiz itkin düşməsi başa düşülür. Ölüm faktı VVAQ orqanları tərəfindən verilən şəhadətnamə ilə təsdiq olunur və ya məhkəmə tərəfindən müəyyən edilir.Ailə başçısının itirilməsi dedikdə nəinki onun fiziki cəhətdən ölümü, həm də onun xəbərsiz itkin düşməsi başa düşülür. Ailə başçısını itirməyə görə əmək pensiyası hüquq münasibətlərinin subyekti qismində bütövlükdə ailə çıxış edir. Həmin qanunun 14-cü maddəsinə görə vəfat etmiş və ya həlak olmuş ailə başçısının öhdəsində olan (vəfat edənin tam təminatında olan və ya ondan özlərinin yaşayışı üçün daimi və əsas vəsait mənbəyi kimi kömək alan) aşağıdakı ailə üzvlərinin ailə başçısını itirməyə görə əmək pensiyası hüququ vardır:vəfat etmiş və ya həlak olmuş şəxslərin övladları: 18 yaşına çatmamış; 18 yaşına çatanadək I və ya II qrup əlil olmuş 18 yaşdan yuxarı;təhsil müəssisələrinin əyani şöbəsində təhsil alanlar, lakin ən çoxu 23 yaşına çatanadək;ata, ana, ər (arvad) pensiya yaşına çatmışdırsa, yaxud I və ya II qrup əlildirsə;yaşından və əmək qabiliyyətindən asılı olmayaraq valideynlərdən biri və ya ər (arvad), yaxud baba, nənə, qardaş, bacı vəfat etmiş və ya həlak olmuş ailə başçısının 8 yaşına çatmamış uşaqlarına, qardaşlarına, bacılarına, nəvələrinə baxırsa və işləmirsə.<br>**Oxu materialları (kitabın adı, müəlliflər və lazımi səhifələr göstərilməklə):**<br>1.Əliyev M.N. Sosial təminat hüququ: Dərslik. Bakı: Adiloğlu, 2007, s.268-278<br>2.Qasımov A.M., Əliyev M.N. Azərbaycan Respublikasının pensiya hüququ. Dərs vəsaiti. Bakı: Digesta, 2001<br>3.Əliyev M.N. Azərbaycan Respublikasında pensiya təminatı sisteminin təşəkkülü və inkişaf perspektivləri (hüquqi problemlər). Bakı: Bakı Universiteti nəşriyyatı, 2003<br>4. Əliyev M.N. Ailə başçısını itirməyə görə pensiyaların bəzi məsələləri // «Gender mədəniyyəti» məqalələr toplusu, Bakı: Adiloğlu, 2003, s. 305-312<br>5. Kərimov D.F. Ailə başçısını itirməyə görə əmək pensiyaları. Bakı: Təknur, 2009 | | | | |

| | | | | | |
|---|---|---|---|---|---|
| | **Mövzu № 11. Əmək pensiyalarının təyin edilməsi, hesablanması vəödənilməsi qaydası**<br>Qısa icmalı: Əmək pensiyalarının təyin edilməsi qaydası, onun təyin edən orqanın statusu və sənədlərin siyahısı açıqlanır.<br>Əmək pensiyalarının hesablanması qaydası baza, sığorta və yığım hissələrinə bölünməklə izah edilir. Əmək pensiyalarının ödənilməsi qaydaları isə ümumi və xüsusi qaydalara bölünməklə izah edilir.<br>**Oxu materialları (kitabın adı, müəlliflər və lazımi səhifələr göstərilməklə):**<br>1. Əliyev M.N. Sosial təminat hüququ: Dərslik. Bakı: Adiloğlu, 2007, s.279-311<br>Qasımov A.M., Əliyev M.N. Azərbaycan Respublikasının pensiya hüququ. Dərs vəsaiti. Bakı: Digesta, 2001<br>Əliyev M. N. Yaşa görə pensiyalar: müasir vəziyyəti, hüquqi problemləri, inkişaf perspektivləri. Bakı: Bakı Universiteti nəşriyyatı, 2003<br>Əliyev M.N. «Dövlət qulluqçularının pensiya təminatı haqqında» Azərbaycan Respublikası Qanununun Kommentariyası. Bakı: Bakı Universiteti nəşriyyatı, 2005 | | 2 | 2 | 09.04.15 |
| | **Mövzu № 12. Sosial müavinətlər**<br>Qısa icmalı: Burada sosial müavinətlərin anlayışı verilir, onların təsnifatı aparılır və hər birinin məbləğinin müəyyən edilməsi metodları göstərilir.«Sosial müavinətlər haqqında» AR Qanununda ilk dəfə olaraq sosial müavinətə leqal anlayış verilmişdir. Həmin qanunun 1-ci maddəsinə görə sosial müavinətlər dedikdə qanunla müəyyən edilmiş qaydada ayrı-ayrı kateqoriya şəxslərə sosial yardım göstərilməsi məqsədilə aylıq və ya birdəfəlik ödənilən pul vəsaiti başa düşülür. Sosial müavinətləri məqsədinə görə,ödənilmə müddətinə görə,sosial müavinətləri alan vətəndaşların kateqoriyalarına görə təyinatına və əhəmiyyətinə görə, maliyyələşdirmə mənbələrinə görə təsnifləşdiririk.Sosial müavinətlərin aşağıdakı növləri fərqləndirilir:əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə müavinət;işsizlik müavinəti,dövlət qulluqçularına ömürlük müavinət,yaşa, əlilliyə (16 yaşadək əlil uşaqlara) və ailə başçısının itirilməsinə görə müavinətlər,bəzi kateqoriya şəxslərə kommunal, nəqliyyat və digər xidmətlərə görə müavinət,hamiləliyə və doğuşa, uşağın anadan olmasına və uşağın üç yaşı tamam olanadək | | 2 | 2 | 23.04.15 |

| | | | | | |
|---|---|---|---|---|---|
| | ona qulluq etməyə görə verilən müavinət,bəzi kateqoriya şəxslərin 16 yaşadək (ümumtəhsil müəssisələrində əyani təhsil alanlar üçün 18 yaşadək) uşaqlarına və bir yaşınadək uşağı olan aztəminatlı ailələrə verilən müavinət,valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların qəyyumlarına (himayəçilərinə) müavinət,radiasiya qəzasının ləğvində iştirak etmiş və həmin qəza nəticəsində zərər çəkərək əlil olmuş şəxslərə hər il müalicə üçün müavinət,dəfn üçün müavinət,ölümə səbəb olan postvaksinal fəsadlara görə müavinət,cəza çəkmədən azad edilmişşəxslərə verilən müavinət, insan alverindən zərər çəkmişşəxslərə verilən müavinət.<br>Əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə müavinət dedikdə əmək funksiyasını və ya digər fəaliyyəti səhhətin qısa müddətə pozulması ilə əlaqədar olaraq yerinə yetirmək mümkün olmadıqda, əmək haqqına və ya digər gəlirə mütənasib olaraq ödənilən ödəniş başa düşülür.Əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə müavinət əmək müqaviləsi bağlayan və bununla bağlı xeyrinə məcburi dövlət sosial sığorta fəaliyyəti həyata keçirilən şəxslərə ödənilir. Bu müavinət xeyrinə sosial sığorta fəaliyyəti həyata keçirilmiş işləyən vətəndaşların digər kateqoriyalarına da eyni əsaslarla təyin olunur.Əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə müavinət, əmək qabiliyyətinin itirildiyi birinci gündən başlayaraq sağalanadək və ya tibbi-sosial ekspert komissiyası (TSEK) tərəfindən əlillik müəyyən edilənədək, lakin qanunvericilikdə müəyyən edilmiş müddətdən çox olmayan dövr üçün Azərbaycan Respublikası Nazirlər Kabinetinin «Xəstəlik vərəqələrinin verilməsi və müalicə-sağlamlıq məqsədlərinə ödənişlərin təyin edilməsi və verilməsi qaydalarının təsdiqi haqqında» 8 yanvar 1993-cü il tarixli 9№-li qərarı ilə müəyyən edilmiş qaydada verilmiş xəstəlik vərəqəsinə (əmək qabiliyyətini itirmək vərəqəsi) əsasən təyin edilir. İşsizlik müavinətinin hesablanması və ödənilməsi qaydaları Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 22 yanvar tarixli 12 saylı qərarı ilə təsdiq edilmiş ''İşsizlik müavinətinin hesablanması və ödənilməsi qaydaları'' ilə müəyyən olunur. Müavinət 1 il ərzində 180 gündən (26 təqvim həftəsi) çox olmayan müddətdə ödənilir. Müavinət alan vətəndaş | | | | |

| | | | | | |
|---|---|---|---|---|---|
| | ayda 1 dəfə məşğulluq xidməti orqanında qeydiyyatdan keçməlidir. Müavinət təyin olunmuş 1 il bitdikdən sonra vətəndaş münasib işlə təmin olunmayıbsa, onda onun təkrarən müavinət almaq hüququ yaranır. Bu zaman işsizlik müavinəti təsdiq olunmuş müavinətin minimum məbləğində müəyyən olunur.<br>Əmək pensiyası hüququ qazanmayan dövlət qulluqçularının ömürlük müavinət almaq hüququ aşağıdakı şərtlər olduqda yaranır:dövlət qulluqçusunun pensiya yaşına çatması və ya əlilliyə görə işdən çıxması;dövlət qulluğunda xidmət illərinin minimum həddinə (5 il) malik olmaması.Bu müavinətin miqdarı isə «Pensiya yaşına çatmasına və ya əlilliyinə görə könüllü işdən çıxmış və dövlət qulluğunda xidmət illərinin minimum həddinə malik olmayan dövlət qulluqçularına təyin edilən ömürlük müavinətin miqdarı haqqında» Azərbaycan Respublikası Prezidentinin 22 oktyabr 2003-cü il tarixli fərmanına əsasən dövlət qulluqçusunun axırıncı əsas vəzifəsi üzrə dövlət məvacibinin 15 faizini təşkil edir.<br>«Sosial müavinətlər haqqında» qanun yaşa görə müavinəti sosial müavinətlərin bir növü kimi təsbit etmişdir. Həmin qanunun 7-ci maddəsinə əsasən yaşa görə müavinət əmək qabiliyyəti olmayan şəxslərə əmək pensiyası hüququ olmadıqda və işləmədikdə təyin edilir. Yaşa görə müavinətlərin təyin edilməsi üçün kişilər 67 yaşa, qadınlar isə 62 yaşa çatmalıdırlar.<br>Bu müavinətlər 2006-cı il yanvar ayının 1-dək əlilliyə görə sosial pensiya kimi təqdim edilmişdir. Həmin tarixdən etibarən isə, «Sosial müavinətlər haqqında» AR Qanununa əsasən sosial müavinətlərin bir növü kimi təsbit edilmiş əlilliyə görə (16 yaşadək əlil uşaqlar da daxil olmaqla) sosial müavinət həmin qanunun 7-ci maddəsinə görə əmək qabiliyyəti olmayan əlil şəxsin əmək pensiyası hüququ olmadıqda təyin edilir. Əlilliyə görə müavinət tibbi sosial ekspert komissiyası tərəfindən müəyyən edilmiş əlillik müddətinə təyin edilir. Əlilliyə görə əmək pensiyalarından fərqli olaraq əlilliyə görə sosial müavinətlərin məbləği müəyyən edilərkən əlilliyin səbəbi hüquqi əhəmiyyət kəsb edir.<br>«Sosial müavinətlər haqqında» AR Qanununda sosial müavinətlərin növü kimi | | | | |

| | | | | | |
|---|---|---|---|---|---|
| | təsbit edilən ailə başçısını itirməyə görə müavinətin təyin edilməsi şərtləri də müəyyən edilmişdir. Həmin şərtlərə aşağıdakılar aiddir: əmək qabiliyyəti olmayan şəxsin əmək pensiyası hüququnun olmaması; yaşından və əmək qabiliyyətindən asılı olmayaraq valideynlərdən, qardaş, bacı, baba və nənələrdən biri vəfat etmiş şəxsin 8 yaşınadək uşaqlarına baxması və işləməməsi.<br>Azərbaycan Respublikası Əmək Məcəlləsinin 125-ci maddəsinə görə hamiləlik və doğuma görə ödənişli məzuniyyətlər aşağıdakı müddətlərdə verilir: hamiləlik dövründə və doğumdan sonrakı dövr üçün işləyən qadınlara 126 təqvim günü müddətində (doğumdan əvvəl 70 təqvim günü və doğumdan sonra 56 təqvim günü); doğum çətin olduqda, iki və ya daha artıq uşaq doğulduqda 140 təqvim günü müddətində (doğumdan əvvəl 70 təqvim günü və doğumdan sonra 70 təqvim günü). Müavinət bütün hallarda əmək haqqının (qazancın) 100 %-i miqdarında hesablanır və müraciət müddəti məhdudlaşdırılmadan ödənilir.<br>Uşağın anadan olmasına görə birdəfəlik müavinət valideynlərinin sosial vəziyyətindən asılı olmayaraq hər bir doğulan uşağa görə ödənilən sosial müavinətlərdən biridir. Bu müavinəti həm işləyən, həm də işləməyən vətəndaşlar ala bilərlər.<br>Uşağın üç yaşı tamam olanadək ona qulluq edilməsinə görə haqqı qismən ödənilən məzuniyyət qadına hamiləliyə və doğuşa görə məzuniyyətin başa çatdığı günün sonrakı günündən başlayaraq təqdim olunur. Bu zaman həmin məzuniyyət qadına onun arzusuna görə tam və ya hissə-hissə təqdim oluna bilər.<br>**Oxu materialları (kitabın adı, müəlliflər vəlazımi səhifələr göstərilməklə):**<br>1. Əliyev M.N. Sosial təminat hüququ: Dərslik. Bakı: Adiloğlu, 2007, s.367-389<br>2.Əliyev M.N. Müavinətlərin anlayışı, təsnifatı və onun məbləğinin müəyyən edilməsi metodları / Keçid dövründə Azərbaycan Respublikasında dövlət və hüquq qurulucuğunun aktual problemləri. Elmi məqalələr məcmuəsi. 10-cu buraxılış. Bakı: Səda, 2004, s. 96 -101<br>3.Əliyev M.N. İşsizlik müavinatı / Azərbaycan Respublikasında dövlət və hüquq qurulucuğunun aktual problemləri. Elmi məqalələr məcmuəsi. 8-ci buraxılış. Bakı: | | | | |

| | | | | | |
|---|---|---|---|---|---|
| | Adiloğlu, 2004. s. 108-113<br>4.Əliyev M.N. Əmək qabiliyyətini müvəqqəti itirməyə görə müavinət/Azərbaycan Respublikasında dövlət və hüquq qurulucuğunun aktual problemləri. Elmi məqalələr məcmuəsi. 11-ci buraxılış. Bakı: Adiloğlu, 2005. s. 104-111<br>5.Əliyev M.N., Mürşüdov R.İ. «Sosial müavinətlər haqqında» Azərbaycan Respublikası Qanununun elmi və praktiki kommentariyası. Bakı: İlay, 2008<br>6.Mürşüdov R.İ. «Sosial müavinətlər haqqında» Azərbaycan Respublikası Qanununun elmi və praktiki kommentariyası. Bakı: İlay, 2012 | | | | |
| | **Mövzu № 13. Sosial xidmətlər və dövlət sosial yardımı**<br>Qısa icmalı: Burada ilk növbədə sosial xidmətin anlayışı verilir, onun prinsipləri göstərilməklə mahiyyəti açıqlanır və subyektlərinin hüquqi vəziyyəti göstərilir. Sosial xidmət-çətin həyati vəziyyətdə (sosial şəraitdə) olan şəxslərin sosial xidmətə olan tələbatlarının ödənilməsi məqsədilə onlara mülkiyyət növündən və təşkilati-hüquqi formasından asılı olmayaraq sosial xidmət müəssisələrində və evdə qulluq, iaşənin təşkili, tibbi, sosial, psixoloji, hüquqi və digər yardımların göstərilməsinə, habelə onların sosial adaptasiya və reabilitasiyasına (fiziki və mənəvi gücün bərpa edilməsinə) nail olunmasına yönəlmiş fəaliyyətdir. Sosial xidmətin prinsiplərinə daxildir: ünvanlılıq, mümkünlük, könüllülük, humanizm, məxfilik, profilaktik yönümlü olması prinsipi. Sosial xidmətə dair qanunvericilik sosial xidmətin aşağıdakı formalarını fərqləndirir: evdə sosial xidmət,yarımstasionar sosial xidmət stasionar sosial xidmət, fərdi qaydada peşəkar sosial xidmət, sosial-məsləhət yardımı. Əlillərin reabilitasiyası, təhsili və məşğulluğunun təmini. Protez-ortopedik yardım və əlillərin nəqliyyat vasitələri ilə təmin edilməsi. Sosial yardımın anlayışı verilir, yaşayış minimumu sosial yardımın başlıca şərti kimi izah olunur və sosial yardımın təyin olunması və verilməsi qaydası göstərilir.<br>Sosial yardımla bağlı münasibətləri tənzim edən «Ünvanlı dövlət sosial yardımı haqqında» Azərbaycan Respublikasının 21 oktyabr 2005-ci il tarixli Qanununun 1 –ci maddəsində ünvanlı dövlət sosial yardımına | | 1 | 1 | 07.05.15 |

| | | | | | |
|---|---|---|---|---|---|
| | aztəminatlı ailələrə dövlət tərəfindən göstərilən pul yardımı kimi anlayış verilmişdir. Azərbaycan Respublikasında dövlət sosial yardımının əsas forması kimi pul ödəməsi şəklində təqdim edilən ünvanlı dövlət sosial yardımı çıxış edir. Bu yardımın təqdim edilməsinin əsasları «Ünvanlı dövlət sosial yardımı haqqında» qanunla müəyyən edilmiş və bu yardım növü aztəminatlı ailələr üçün nəzərdə tutulmuşdur. Həmin qanunda aztəminatlı ailə orta aylıq gəlirləri hər bir ailə üzvü üçün ehtiyac meyarının məcmusundan aşağı olan ailə kimi təsbit edilmişdir. Qanunla sosial yardım almaq hüququna orta aylıq gəliri onlardan asılı olmayan səbəblərdən (ailə üzvlərinin əmək qabiliyyətsiz olması, ailənin əmək qabiliyyətli üzvünün əhalinin məşğulluğu mərkəzlərində işsiz kimi qeydə alınması, vəfat etməsi, məhkəmə tərəfindən itkin düşmüş və yaxud ölmüş hesab edilməsi, azadlıqdan məhrum edilməsi, ailə üzvünün olduğu yerin məlum olmaması və s.) hər bir ailə üzvü üçün ehtiyac meyarının məcmusundan aşağı olan aztəminatlı ailələr malikdirlər. Ehtiyac meyarına isə həmin qanunda əhalinin əsas sosial-demoqrafik qrupları üzrə yaşayış minimumundan asılı olaraq, ünvanlı dövlət sosial yardımının təyin edilməsi məqsədilə dövlət büdcəsi ilə birgə hər il üçün təsdiq olunan hədd kimi leqal anlayış verilmişdir. Ailənin orta aylıq gəliri ailənin gəlirinin orta aylıq göstəricisidir.<br>Təqaüdlər qanunvericiliklə müəyyən edilmiş qaydada ayrı-ayrı kateqoriya şəxslərə sosial yardım göstərilməsi məqsədilə dövlət tərəfindən ödənilən pul vəsaitidir. Müasir dövrdə təqaüdlərin aşağıdakı növlərini fərqləndirmək olar:<br>a) tələbə və şagirdlərə verilən təqaüdlər;<br>b) fərdi təqaüdlər;<br>c) fəxri adlara görə verilən təqaüdlər;<br>ç) Azərbaycanın Milli Qəhrəmanlarına verilən təqaüdlər;<br>d) şəhid ailələri üçün verilən təqaüdlər.<br>**Oxu materialları (kitabın adı, müəlliflər və lazımi səhifələr göstərilməklə):**<br>1. Əliyev M.N. Sosial təminat hüququ: Dərslik. Bakı: Adiloğlu, 2007, s.390-408<br>2. Əliyev M.N. Sosial xidmətin anlayışı və prinsipləri/Azərbaycan Respublikasında dövlət və hüquq qurulucuğunun aktual problemləri. Elmi məqalələr məcmuəsi. 12-ci | | | | |

| | | | | | |
|---|---|---|---|---|---|
| | buraxılış. Bakı: Adiloğlu, 2005, s. 158-162<br>3. Əliyev M.N. Sosial xidmətin dövlətin sosial funksiyası ilə qarşılıqlı əlaqəsi/Azərbaycan Respublikasında dövlət və hüquq quruculuğunun aktual problemləri. Elmi məqalələr məcmuəsi. Bakı: Adiloğlu, 2009, № 02, s.96-102<br>4. Əliyev A.Ə., Əliyev İ.A., Qasımov N.Ə. Azərbaycanda bazar münasibətləri şəraitində əhalinin sosial problemləri. Bakı, 1998, s. 89-109<br>5. Əliyev M.N. Vətəndaşların layiqli həyat səviyyəsinə olan hüququnun bəzi məsələləri // Hüquq+Gənclik, Bakı, 2003, № 1, s. 15-19<br>6. Əliyev M.N. Yoxsulluq probleminin həllində sosial təminat hüququnun rolu / Azərbaycan MEA Fəlsəfə və Siyasi-Hüquqi Tədqiqatlar İnstitutunun 60 illiyi və YUNESKO-nun «Ümumdünya Fəlsəfə Günü»nə həsr olunmuş Elmi Konfransın Materialları. Bakı, 2005, s. 294-315<br>7. Əliyev M.N. Yoxsulluq probleminin sosial təminat hüququ normalarında həlli / Keçid dövründə Azərbaycan Respublikasında dövlət və hüquq qurulucuğunun aktual problemləri». Elmi məqalələr məcmuəsi. 14-cü buraxılış. Bakı: Adiloğlu, 2006, s. 81-88<br>8. Əliyev M.N. Sosial xidmət sosial təminat hüququnun institutu kimi. Dərs vəsaiti. Bakı: Təknur, 2008<br>9. Hacıyeva M.A. Sosial xidmətin dövlətin sosial fəaliyyəti ilə nisbəti / Azərbaycan Respublikasında dövlət və hüquq quruculuğunun aktual problemləri. Elmi məqalələr məcmuəsi. 16-cı buraxılış. Bakı,2006, s. 184-188 | | | | |

**VI.** İmtahanın keçirilməsi forması -yazılı, şifahi, dialoq və ya test.

**VII.** **Semestr ərzində qiymətləndirmə və bal bölgüsü:**

Balların maksimum miqdarı – 100 bal.

***A)*** ***Semestr ərzində toplanan maksimum bal*** **– 50 (imtahana keçid bal – 17)**

| | |
|---|---|
| Dərsə davamiyyətə görə | 10 bal |
| Tələbələrin sərbəst işinə (referat, prezentasiya, tədqiqat işi və s.) görə | 10 bal |

| | |
|---|---|
| Qeyd: Plagiat halları qəti qadağandır! Sərbəst işlə əlaqədar bütün tapşırıqların qısa təsviri, təqdim olunma şərtləri, vaxtı və qiymətləndirmə üsulu dəqiq göstərilir. | |
| Seminar (məşğələ) və ya laboratoriya dərslərinin nəticələrinə görə (eyni fəndən həm seminar (məşğələ), həm də laboratoriya dərsləri nəzərdə tutulduğu halda onların hər birinə 10 bal ayrılır). | 20 bal |
| Kurs işinin hazırlanmasına və müdafiəsinə görə (fənn üzrə kurs işi (layihəsi) nəzərdə tutulmayıbsa, ona ayrılan 10 bal seminar (məşğələ) və ya laboratoriya dərslərinə əlavə olunur). | 10 bal |

***B) Semestr imtahanı nəticəsinə görə*** **- maksimum 50 bal**

Hər biletdə – 5 sual, hər suala – 10 bal verilir

Qeyd: Tələbənin imtahandan topladığı balın miqdarı 17-dən az olmamalıdır.

***C) Semestr nəticəsinə görə qiymətləndirmə (imtahan və imtahana qədər toplanan ballar əsasında):***

| | | |
|---|---|---|
| **91 – 100 bal** | **əla** | **A** |
| **81 – 90 bal** | **çox yaxşı** | **B** |
| **71 – 80 bal** | **yaxşı** | **C** |
| **61 – 70 bal** | **kafi** | **D** |
| **51 – 60 bal** | **qənaətbəxş** | **E** |
| **51 baldan aşağı** | **qeyri-kafi** | **F** |

**Müəllim:prof. Əliyev Mayis Nəbi oğlu İmza:____________**

**Tarix: 09.01.2015**